TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

"15" Avqust 2019-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROPOSOL-MKF** ağız boşluğu üçün sprey
PROPOSOL-MKF

**Tərkibi**
*Təsiredici maddə:* 1 konteynerdə 1,2 q və ya 3,6 q propolis vardır.
*Köməkçi maddələr:* 96%-li etanol, qliserin.

**Təsviri**
Qəhvəyi və ya sarı-qəhvəyi rəngdən qırmızı-qəhvəyi rəngə qədər, xarakterik qoxulu mayedir.

**Farmakoterapevtik qrupu**
Stomatologiyada istifadə edilən vasitə.
**ATC kodu:** A01AB11.

**Farmakoloji xüsusiyyətləri**
Propolisin təsiredici maddəsinin tərkibində təbii birləşmələr (flavonoidlər, amin turşuları, qətran, üzvi turşular, efir yağları, vitaminlər, mikroelementlər) olan bioloji aktiv komplekslər vardır. Propolis təzahürlü antimikrob, iltabəleyhinə, reparativ və antioksidant təsirə malikdir ki, bunlar da, kataral, aftoz, xoralı stomatitlərdə, kataral qinqivitdə, qlossitdə, parodontitdə müalicəvi təsiri təmin edir. Bundan başqa, spreyin tərkibinə qliserin və etil spirti daxildir ki, bunlar da, yumşaldıcı və antiseptik terapevtik effekt göstərir. Qeyd edilən farmakoloji xüsusiyyətlərin kombinasiyası ağız boşluğunun selikli qişasının iltihabi xəstəliklərininin kompleks patogen terapiyasını təmin edir, yerli qıcıqlandırıcı və ümumi toksik təsir göstərmir.
Proposol-MKF 2-4 dəqiqə ərzində ağız boşluğunun selikli qişasına sorulur və yerli rezorbtiv müalicəvi təsir göstərir.

**İstifadəsinə göstərişlər**
Ağız boşluğunun selikli qişasının iltihabi xəstəliklərinin yerli müalicəsində: aftoz, kataral, xora simptomları; tonzillit, kataral qinqivit, qlossit.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə və arıçılıq məhsullarına qarşı yüksək həssaslıq, ekzema (kəskin formaları), selikli qişanın zədələnmiş nahiyəsindən qanaxma.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Preparatı istifadə etməzdən əvvəl ağız boşluğunu qaynanmış su ilə yumaq məsləhət görülür.

Preparatın gözə düşməsindən çəkinmək lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər antiseptik vasitələrlə və ya arıçılıq məhsulları ilə eyni vaxtda istifadə etmək məsləhət görülmür.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik zamanı preparatı, yalnız o zaman istifadə etmək olar ki, ana üçün gözlənilən fayda dölə olan potensial riskdən üstün olsun. Laktasiya dövründə preparatın istifadəsinə ehtiyac olduqda, ana südü ilə qidalandırmanı dayandırmaq lazımdır.

**Pediatriyada istifadəsi**
Preparatı 12 yaşa qədər uşaqlarda istifadə etmək olmaz.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparatın tərkibində 80% və ya 96% etanol vardır. Püskürdücünün başlığından 1-2 saniyə ərzində basan zaman ağız boşluğuna preparatla birlikdə 0,8 q 96%-li etanol daxil olur ki, bu da, nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarə edərkən, reaksiyaların sürətinə mənfi təsir etmir.

**İstifadə qaydası və dozası**
Preparat böyüklərdə və 12 yaşdan yuxarı uşaqlarda ağız boşluğunun zədələnmiş nahiyəsinin isladılması üçün istifadə edilir. Müalicənin əvvəlində preparat sutkada 2-3 dəfə, sonra iltihabi prosesin təzahürü azaldıqda, sutkada 1-2 dəfə tam sağalana qədər istifadə edilir. Müalicə kursu 3-7 gündür.
*Preparatdan istifadə qaydası*
1. Flakonun qoruyucu qapağını açmaq və püskürdücünün təmiz olmasına əmin olmaq və onu klapanın ştokuna taxmaq lazımdır.
2. Püskürdücünün istiqaməti yuxarıya doğru olmaqla, flakonu şaquli vəziyyətdə tutub, mayenin ilk damcıları yaranana qədər püskürdücünün başlığından bir neçə dəfə basmaq lazımdır.
3. Püskürdücünün sərbəst ucunu ağız boşluğuna yeridib və onu zədələnmiş nahiyəyə istiqamətləndirmək lazımdır, püskürdücünün başlığına 1-2 dəfə basmaq və bərabər şəkildə ağız boşluğu sahəsini preparatla islatmaq lazımdır.
4. Preparatı püskürtdükdən sonra ağız boşluğunun yanma hissiyyatı aradan qalxana qədər qida və içki qəbulundan çəkinmək lazımdır.
5. İslatmanı bitirdikdən sonra flakonu qoruyucu qapaqla bağlamaq lazımdır.

*Püskürdücünün təmizlənməsi*
Püskürdücünün tıxanmasının qarşısını almaq məqsədilə onu axar isti su ilə yumaq və suyun qalıqlarını çırpıb, yüksək temperaturun təsirinə məruz qalmamaqla isti yerdə qurutmaq lazımdır.

**Əlavə təsirləri**
Allergik reaksiyalar (o cümlədən, allergik dermatit, hiperemiya, dəri qaşınması, səpgi, larinqospazm, təngnəfəslik, Kvinke ödemi), ürəkbulanma, yerli effektlər (dildə yüngül yanma hissi, ağızda quruluq).

**Doza həddinin aşılması**
Allergik reaksiyalar, dözülməz yanma hissi və ağızda quruluq.
Qeyd edilən simptomların təzahürlü formalarında ağız boşluğunu isti qaynanmış su ilə yumaq, allergik reaksiyalar zamanı isə antihistamin preparatlar təyin etmək lazımdır.

**Buraxılış forması**
20 q və ya 60 q məhlul, mexaniki nasoslu konteynerdə. Hər konteyner qoruyucu qapaqla və püskürdücü ucluqla təchiz edilmişdir.1 konteyner, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C temperaturdan yüksək olmayan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır. Birbaşa düşən günəş şüalarından qorumaq lazımdır. Odun yaxınlığında püskürtmək olmaz.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Mikrofarm" MMC.

**Ünvan**
Ukrayna, 61013, Xarkov ş., Şevçenko k., 20.